# Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində görüş keçirilib

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində olub.**

O, müəssisədə sakinlərin yaşayışı, asudə vaxtlarını səmərəli keçirmək üçün yaradılan şərait, ahıllara göstərilən xidmətlər ilə tanış olub.

Bildirilib ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ahıllara dövlət qayğısının artırılması sahəsində mühüm addımların atılmasına imkan verib. Bu istiqamətdə görülən işlər çərçivəsində Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi üçün son illərdə 5 mərtəbəli 170 yerlik



əlavə korpus istifadəyə verilib, çarpayı sayı 300-ə çatdırılıb. Hazırda 229 ahıl şəxsin yaşadığı müəssisədə hər bir sakin lazımi məişət avadanlıqları ilə təchiz olunmuş otaqla təmin edilib.



Həmçinin Heydər Əliyev Fondunun həssas qruplarla, habelə Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinləri ilə bağlı ardıcıl olaraq həyata keçirdiyi dəstək tədbirləri, humanitar aksiyalar diqqətə çatdırılıb.

Müasir tələblərə uyğun şəraitin yaradıldığı müəssisədə sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün kitabxana və idman zalları, müəyyən əl işləri hazırlamaq üçün emalatxanalar və sairə vardır. Ahılların asudə vaxtını səmərəli keçirmək üçün tədbirlər, mədəniyyət mərkəzlərinə, muzeylərə, müxtəlif istirahət mərkəzlərinə ekskursiyalar, gəzintilər də təşkil olunur.

A.Əliyev müəssisədə daimi dövlət himayəsində yaşayan ahıllarla görüşüb, onların qayğıları ilə maraqlanıb. Ahıl şəxslər burada onlar üçün yaradılan şəraitdən, göstərilən xidmətlərdən razılıqlarını bildirib, diqqət və qayğı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Nazir söhbət zamanı müəssisədə sakinlərin yaşayış şəraitinin, stasionar şəraitdə keyfiyyətli sosial xidmətlərlə təminatının daim diqqətdə saxlandığını vurğulayıb. Görüşdə bir neçə ahıl şəxs öz yaradıcılıq qabiliyyətlərini, ifaçılıq bacarıqlarını da nümayiş etdirib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 6 mart (№ 50).- S.7.